# Yanğın söndürüldü

***Meşə təsərrüfatına, ətraf mühitə böyük zərər vuran, bəzən insan, canlı və böyük maddi itkilərə yol açan meşə yanğınları dünyanın meşə ilə örtülmüş istənilən ərazisində baş verə bilər və baş verir. Ancaq yanğınlar daha çox insanların məskən saldığı və ya ona yaxın ərazilərdə baş verir. Bu da onu göstərir ki, insanların cüzi bir ehtiyatsızlığı sayəsində (meşədə tonqal qalamaq, ov etmək, sönməmiş kibriti və ya papirosu qurumuş ot və yarpaq olan yerlərə atmaq və s.) baş verir. Yanğına təbiət hadisələri (ildırım düşməsi, güclü istilər və s.) səbəb ola bilər.***

Yuxarıda qeyd etdiyimiz kimi meşə yanğınları istənilən ərazidə baş verə bilər. Hər il Rusiyada, ABŞ-da, Türkiyədə və digər nəhəng dövlətlərdə belə güclü meşə yanğınları günlərlə, həftələrlə, bəzən aylarla davam edir, çox böyük itkilərə səbəb olur.

Bu ilin özündə ABŞ-ın Kaliforniya ştatında, Türkiyənin Antalya və Bodrum kimi kurort şəhərləri ətrafında baş vermiş yanğınlar yaşayış məntəqələrinə keçmiş, minlərlə əhalinin təxliyəsinə, onlarla evin və digər obyektlərin yanmasına səbəb olmuşdu.

Dağlıq ərazidə, texniki vasitələrin işlədilməsi üçün əlverişsiz coğrafi məkanda baş verən yanğınların söndürülməsi çox böyük çətinlik törədir və böyük zəhmət, fədakarlıq, çətin şəraitdə işləmək vərdişi tələb edir.

Avqust ayının sonu, sentyabr ayının əvvəllərində rayonumuzun Solquca, Abrıx və Dandıx kəndləri yaxınlığındakı dağ massivlərində yerləşən meşələrdə yanğınlar baş verməişdi. Həmin ərazilər yüksək dağlıq, qayalıq olduğundan yanğının söndürülməsi çox böyük çətinlik törədirdi. Yanğının söndürulməsi ilə əlaqədar Respublika Fövqəladə Hallar Nazirliyi təcili surətdə bilavasitə yanğının baş verdiyi ərazidə, Dandıq kəndi yaxınlığında qərargah yaratdı.

Fövqəladə hallar nazirinin müavini cənab Etibar Mirzəyevin rəhbərlik etdiyi qərargah sutka ərzində fasiləsiz olaraq yanğının söndürülməsi işinə nəzarət edirdi. Yanğının söndürülməsinə Fövqəladə Hallar Nazirliyinin Dovlət Yanğından Mühafizə, Dövlət Yanğın Nəzarəti, Xüsusi Riskli Xilasetmə və Aviasiya xidmətlərinin əməkdaşları, Mülki müdafiə qoşunlarının bölmələri, Şimal-qərb Regional Mərkəzinin işçiləri—ümumilikdə 600 nəfərə yaxın canlı qüvvə və texnika cəlb olunmuşdu. Yanğının söndürülməsində eyni zamanda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin meşə təsərrüfatı idarəsinin 200 nəfərə qədər canlı qüvvəsi, rayon icra hakimiyyətinin 19 ədəd müxtəlif təyinatlı texnikası, 30 nəfərdən çox polis əməkdaşı, tibb işçiləri, yaxın yaşayış məntəqələrinin mülki şəxslərdən ibarət könüllü dəstələri iştirak edirdi.

Sentyabrın 4-də Fövqəladə Hallar naziri cənab Kəmaləddin Heydərov yanğının söndürülməsi ilə əlaqədar Dandıx kəndi ərazisində yaradılmış qərargahda əməliyyat müşavirəsi keçirdi.

Cənab Kəmaləddin Heydərov yanğının qısa müddətdə söndürülməsi, xüsusən, yaxınlıqdakı yaşayış məntəqələrinə keçməsinə yol verilməməsi üçün həyata keçiriləcək tədbirlər barədə konkret tapşırıqlarını verdi.

Beləliklə Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə, Dövlət Yanğın Nəzarəti, Xüsusi Riskli Xilasetmə və Aviasiya xidməti əməkdaşlarının, Mülki müdafiə qoşunları bölmələrinin və Şimal-qərb Regional Mərkəzi işçilərinin böyük fədakarlığı, çətin şəraitdə işləmək bacarıqları sayəsində qeyd etdiyimiz ərazilərdə baş verən yanğınlar qısa müddətdə söndürüldü, ən başlıcası isə yanğının baş verdiyi ərazilərin lap yaxınlığında olan yaşayış məntəqələrinə, onların kənd ətrafı əkin və bağ sahələrinə yanğının keçməsinin qarşısı alındı. Əhali arasında təxliyə edilən, xəsarət alan olmadığı kimi, onların əmlakına da heç bir maddi ziyan dəyməsinə yol verilmədi.

Bu bir daha göstərdi ki, Azərbaycanımız bütün sahələrdə olduğu kimi, baş verən istənilən fövqəladə halın qarşısının alınması işində də yüksək inkişafa və hazırlığa malikdir.

**İlkin MAARİFOĞLU.**

# Azərbaycanın füsunkar Qəbələsi

Ana Vətənimiz Azərbaycan bol-bərəkətli, əvəzedilməz təbiətə malikdir. Bu cür gözəllik, belə təkrarsızlıq bir daha sübut edir ki, Ulu Tanrı bizim Vətən torpaqlarından heç bir nemətini əsirgəməmiş insan yaşayışı üçün yaxşı hər nə varsa bəxş etmişdir. Hələ qədimdən Azərbaycanın torpaqlarının adı diqqət çəkmiş, yaxın-uzaq ölkə və xalqların tarixində adı çəkilmiş, hər zaman maraq dairəsində olmuşdur. I əsrdə Roma alimi Böyük Plini, II əsrdə yunan coğrafiyaşünası Klavdi Ptolomey, IX əsrdə ərəb tarixçisi Əl-Balazuri, X əsr İbn Hövqəl, Əl-Müqəddəsi, XIII əsr Yaqut Həməvi və s. kimi qədim tarixçilərin əsərlərində Qəbələnin adı anılmış, Qəbələnin siyasi-iqtisadi həyatı, təbiəti, təbii gözəlliyi haqqında çox ətraflı məlumatlar verilmişdir. Hətta Qəbələnin təbiətinin gözəlliyi onları o qədər valeh etmişdir ki, burada yaşayan insanlara həsəd aparmışlar. Bu tarixən belə olmuş, bu gün də belədir.

Son vaxtlar Azərbaycana o cümlədən, Qəbələyə gələn xarici turistlərin, qonaqların sayı durmadan artır. Təbii gözəlliklər məskəni füsunkar Qəbələ möcüzəvi flora və faunası ilə hər kəsi heyrətləndirməkdədir. Uca dağları, sal qayaları, bol sulu çayları, zümrüd meşələri, yaşıl çəmənləri İlahinin qüdrətindən yaranmış təkrarsız gözəlliklər, taleyimizə yazılmış ən uca, ali məkan kimi hər kəsin marağına, diqqətinə səbəb olur. Qəbələ tarixini qoruyub yaşatmaqla bərabər son illərdə elə dəyişmiş, elə gözəlləşmiş ki, görənlər heyran qalır. Bir hissəsində qədim şəhərin xarabalıqları, başqa bir ərazidə digər tarixi-memarlıq abidələri, son illərdə inşa olunmuş göz oxşayan müasir yaraşıqlı tikililəri ilə və ən nəhayət zəngin təbiəti ilə Qəbələ hər kəsin sevimli məkanına çevrilmişdir. Elə buna görə də Qəbələyə gələn turistlərin sayı ilbəil artmaqdadır. Əbəs yerə Qəbələ Azərbaycanın İsveçrəsidir demirlər. Buraya gələnlər Qəbələnin təbiətindən, sərin dağ havasından, yaşıl çəmənindən, şaqraq şəlalərindən, saf bulaqlarından və mehriban, güləruz insanlarından ayrıla bilmir.

Bu günlərdə xarici ölkələrdən gəlmiş ziyarətçilərimizin sayı daha çoxluq təşkil etməkdədir. Müxtəlif otellərdə, istirahət mərkəzlərində dincələn turistlərin əksəriyyəti Qəbələ Tarix-Diyarşünaslıq muzeyinə gəlir. Onlar qədim Albaniyanın 2500 illik tarixini eksponatların dili ilə öyrənmək üçün davamlı surətdə muzeyimizə tələsirlər. Qonaqlar muzeyimizin rəy kitablarında Qəbələnin füsunkar, maraqlı təbitətinə vurğun olduqlarını və heyran qaldıqlarını qeyd edirlər.

**İlhamə SEYİDOVA,**
**muzeyin əməkdaşı.**

# Meşələri qoruyaq

***Yerin ağac bitkiləri ilə örtülmüş hissəsi olan meşələr planetimizin quru ərazisinin üçdə birini tutmaqla 4 milyard hektardır. Bunun 809 milyon hektarı Rusiya Federasiyasının, 478 milyon hektarı Braziliyanın, 310 milyon hektarı Kanadanın və 303 milyon hektarı ABŞ-ın payına düşür. Son 200 ildə dünyada meşə ərazilərinin sahəsi 2 dəfədən çox azalmışdır. XVIII-XIX əsrlərdə Azərbaycan ərazisinin 35 faizi meşə ilə örtülü olmuşdur. Hal-hazırda Azərbaycan meşələrinin ərazisi ümumi ərazinin cəmi 11 faizini tutur. Bu rəqəm Rusiyada 44 faiz, Latviyada 40 faiz, Cürcüstanda isə 39 faiz təşkil edir.***

Azərbaycanın bir çox bölgələri öz füsunkar gözəlliyi, zəngin təbii sərvətləri, al-əlvan florası və faunası ilə bütün dünyada şöhrət qazanmışdır. Burada 125 fəsiləyə və 930 cinsə daxil olan bitkilərin 4500 növü yayılmışdır. Meşələrimizin çox hissəsi qiymətli ağac cinslərindən (palıd, fısdıq, Vələs, cökə, ağcaqayın və s)ibarətdir. Respublikamızın meşələrinin müxtəlifliyi, onun yayılması iqlim, torpaq, müxtəlif hündürlük qurşaqlarından və digər şəraitdən asılıdır.

Rayonumuzun meşələri ağacların növ zənginliyinə, gözəlliyinə, ümumi əraziyə yayılma arealına görə respublikada öncül yerdədir. bu xüsusiyyət Qəbələnin turizm sahəsindəki



cəlbediciliyini artırır. Rayonumuzun meşə sahələri əsasən dağlıq hissədədir. Şahdağ Dövlət Təbiət qoruğunun xeyli hissəsi də rayonumuzun ərazisinə düşür.

Respublikamızın meşələrinin də 95 faizə qədəri dağlıq və dağətəyi ərazilərdə qalan 5 faizi işə çay vadilərində, düzən ərazidə yerləşir. Meşələrimiz yerləşdiyi əraziyə görə sırf qoruyucu funksiyasını yerinə yetirir. Ona görə də 1-ci qrup meşələrə aiddir.

Ölkəmizdə hər adambaşına 0,12 hektar meşə sahəsi düşür ki, bu ümumdünya səviyyəsində .götürülən müvafiq orta rəqəmdən 4 dəfə (0,48) azdır.

Ekoloqlar qeyd edir ki, ərazisinin 20—25 faizi meşə ilə örtülü olan ölkələrdə, səhralaşma, su qıtlığı, qeyri-sabit iqlim şəraiti, torpaqların eroziyası, bataqlıq və şoranlıq hallarına az təsadüf olunur. Bu baxımdan meşələrimiz respublikada ekoloji tarazlığı qoruyub saxlamaq üçün yetərli deyil, ona görə də meşələrimiz ciddi şəkildə qorunmalı və artırılmalıdır. Bu məsələ təkcə dövlət orqanlarının deyil, hər bir vətəndaşın borcudur.

Meşələrə, həm də təkcə meşələrə deyil, ərazidəki bütün canlı və cansız təbiətə ən böyük ziyan vuran hadisələrdən biri (bəlkə də birincisi) meşə yanğınlarıdır. Meşə yanğınları ən çox əhalinin təqsiri üzündən (meşədə tonqal qalamaq, ov etmək, kibritlə, papirosu söndürülməmiş tullamaq və s.) baş verir. Yanğın zamanı meşələr, kollar yaşıllıqlarla bərabər canlı aləm də məhv olur. Meşə təsərrüfatına böyük ziyan dəyir. Çoxlu oduncaq yanır, meşənin tərkibi pisləşir, ətraf aləmin çirklənməsi sürətlənir. Nəticədə insanlara lazım olan normal hava korlanır.

Buna görə meşələrin yanğın təhlükəsizliyini təmin etmək üçün bütün qüvvələr səfərbərliyə alınmalıdır. Meşələr, hər bir ağac, kol bəşəriyyətin sağlamlığına cismani rahatlığına, rühən dincəlməsinə xidmət edir. Hər bir ağac ağ çiyərlərimiz üçün əvəzsiz olan oksigen ixrac edir.

Bütövlükdə, bağ, park, yaşıl xiyaban, meşə xoş əhval-ruhiyyəmiz, yüksək ovqatımızdır. Ovqatımızın yüksəkliyi üçün meşəyə, hər bir ağaca qayğıkeş olmalıyıq. Bunun üçün təbiəti qorumalı, onun harayına səs verməliyik.

Yazımızı umummilli liderimiz Heydər Əliyevin bir kəlamı ilə tamamlayırıq. «Əgər kimsə sağlam bir ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o öz ailəsinə, özüözünə xəyanət edir».

**Rəna SƏMƏDOVA,**
**Qəbələ şəhər 5 saylı tam orta məktəbin müəllimi.**